

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 180 (23.592)

21 oktyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. Müraciətdə bildirilib ki, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür.

Prezident İlham Əliyev düşmənin məhv edilən və qənimət götürülən hərbi texnikası haqqında məlumat verib.

Dövlətimizin başçısı bildirib ki, bu yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram. Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Norașen idi), Vəng (bu kənd bundan sonra Çinarlı kəndi adlandırılsın) yaşayış məntəqələri düşməndən azad edilib. Ali Baş Komandan bildirib ki, Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib.



## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzi yaradılıb

Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzinin təqdimatı keçirilib.



Təqdimatda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, diyarımızda şagird nailiyyətlərinin qiymətləndirilməsi, istedad və bacarıqların aşkarlanması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Bu ildən Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey, Naxçıvan Qızlar Liseyi ilə yanaşı, Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyə də qəbul imtahanı keçiriləcəkdir. Təhsil Nazirliyi hər il muxtar respublika və respublika fənn olimpiadaları, eləcə də muxtar respublika üzrə 40 mindən çox şagirdin müxtəlif fənlərlə bağlı öyrəndikləri mövzuların mənimsənilməsi səviyyəsinin qiymətləndirilməsi üçün sınaq imtahanları keçirir. Buna görə də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində İmtahan Mərkəzinin yaradılmasına böyük ehtiyac var idi.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə İmtahan Mərkəzi üçün yer ayrılıb və mərkəzdə ən müasir avadanlıqlar quraşdırılıb. Mərkəz Təhsil Nazirliyi tərəfindən liseylərə qəbul, həmçinin müxtəlif fənn olimpiadalarının keçirilməsinə, şagirdlərin mövzular üzrə mənimsəmə səviyyəsinin qiymətləndirilməsinə geniş imkanlar yaradır.

Nazir muxtar respublika təhsilinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təhsil işçiləri adından minnətdarlığını bildirib.

Təqdimatda Təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək mərkəzdə yaradılan şərait və avadanlıqlar haqqında məlumat verib.

Sonra mərkəzdə quraşdırılan avadanlıqlara baxış olub. Bildirilib ki, rəqəmsal monoxrom yüksəksürətli rizoqraf və rəqəmsal tamrəngli surətçıxaran-printer skaner kimi çap avadanlıqları müasirliyi ilə seçilir. Mövcud printer skaner, hətta cavab kartlarını da nəşr edir ki, bu da sınaq imtahanları və fənn olimpiadaları üçün lazım olacaq cavab kartlarının mərkəzdə nəşrini təmin edəcəkdir. Test skaner saatda 1800 cavab kartını oxuya bilir. Mərkəzdə kompüterlər xüsusi proqram təminatı ilə təchiz olunub. Yüksək göstəricilərə malik olan kompüterlər mərkəzdə test bankının yaradılması üçün də geniş imkanlar açır. Mövcud avadanlıqlarla yanaşı, gələcəkdə test skaner üçün nəzərdə tutulmuş proqram təminatının təkmilləşdirilməsi, açıqtipli testlərin müəyyənləşdirilmiş marker müəllimlərin kompüterlərinə göndərilməsi və elektron yoxlanılması nəzərdə tutulur. Həmçinin imtahan nəticələri ilə şagirdlərin valideynlərinə "Naxtel" üzərindən sms vasitəsilə məlumat göndərilməsi istiqamətində də işlər aparılacaqdır.

Yeni yaradılan qurum şagirdlərin biliyinin qiymətləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## İstilik sistemi olmayan müəssisələr mal-materiallarla təmin edilib

İstilik sistemi olmayan müəssisələrin mal-materiallarla təmin edilməsi ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Maliyyə nazirinin müavini Həsən İsmayılov çıxış edərək bildirib ki, 2020-ci il avqustun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə nazirliyin də qarşısında bir sıra vəzifələr qoyulub. Muxtar respublikada istilik sistemi olmayan müəssisələrə payız-qış mövsümündə tələb olunan mal-materialın alınması üçün lazımi maliyyə vəsaitinin ayrılmasını təmin etmək, həmçinin dövlət müəssisələrində enerjidaşıyıcılarından istifadə zamanı limitə və borc qalığının yaranmamasına nəzarət edilməsi nazirliyə tapşırılıb.



Həsən İsmayılov Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan müəssisələrinin sayının, həmçinin tələbatının müəyyən edildiyini bildirərək ardıcıl və sistemli aparılan tikinti-quruculuq işləri nəticəsində az sayda müəssisə və təşkilatın istilik təminatında maye qaz, neft məhsullarından istifadə olunduğunu vurğulayıb.

Qeyd olunub ki, verilən tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 avqust tarixli Sərəncamına əsasən Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin təklifləri nəzərə alınaraq istilik sistemi olmayan müəssisələrdə 2020-2021-ci illərin payız-qış mövsümü üçün tələb olunan yanacağın, mal-materialların bölgüsü təsdiq edilib. Müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası ilə əlaqədar müəyyənləşdirilmiş bölgüyə uyğun olaraq Maliyyə Nazirliyi tərəfindən mal-materialların alınması üçün lazımi vəsaitin ayrılması təmin edilib. Həmçinin nazirlik tərəfindən dövlət büdcəsindən maliyyələşən nazirlik, komitə, idarə və təşkilatların 2020-ci ildə saxlanılması xərcləri smetasında kommunal xidmətlərin ödənilməsi və qış mövsümündə tələb olunan mal-materialın alınması üçün vəsait nəzərdə tutulub.

Sonra istilik sistemi olmayan müəssisələrə mal-materiallar paylanılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikanın infrastruktur təminatı yenilənir

Muxtar respublikada həyata keçirilən ardıcıl tədbirlər, qəbul edilmiş mühüm Dövlət proqramlarının uğurlu icrası, yaradılan yeni istehsal və xidmət sahələri əhalinin səmərəli məşğulluğunu təmin etmiş, davamlı inkişafa yeni imkanlar yaratmışdır.

İqtisadi və sosial sahələrdə əldə olunmuş uğurların davamlılığının təmin olunması və infrastrukturun yenilənməsi istiqamətində təkcə 2020-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 797 milyon 957 min 500 manat vəsait yönəldilmişdir ki, bu da 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

***Yanvar-sentyabr ayları üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, min manat***




Bu dövr ərzində muxtar respublikada infrastruktur quruculuğu tədbirləri çərçivəsində 100 elm və təhsil müəssisəsi, o cümlədən 18938 şagird yerlik 66 ümumtəhsil məktəbi, 171 inzibati bina,14 nasos stansiyası, 79 subartezian quyusu, 50 körpü, 202 mədəniyyət müəssisəsi, 111 səhiyyə müəssisəsi, 718 istehsal və xidmət sahəsi, 8 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 110 fərdi ev, mənzil və bir sıra digər obyektlər tikilmişdir. Bundan əlavə, bu dövrdə 97 elm və təhsil müəssisəsi, o cümlədən 34240 şagird yerlik 75 ümumtəhsil məktəbi, 68 inzibati bina, 8 nasos stansiyası, 20 subartezian quyusu, 19 körpü, 100 mədəniyyət müəssisəsi, 21 səhiyyə müəssisəsi, 13 idman obyekti və digər obyektlər yenidən qurulmuşdur.

Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 2010-cu ildən 1 oktyabr 2020-ci il tarixədək muxtar respublikada 125 kənd mərkəzi istifadəyə verilmişdir.

Ötən dövrdə əhalinin rahatlığına və yaşayış standartlarının yüksəldilməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması, xüsusilə diqqətdə saxlanılmışdır. Bu istiqamətdə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Hacıniyyət və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şərur rayonunda Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci və ikinci mərhələsi, Sutəmizləyici Qurğular Kompleksi, Zeyvə, Düdəngə kəndlərində və Cəlilkənddə içməli su şəbəkəsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində, ətraf qəsəbə və kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Şərur rayonunun Sərxanlı, Kəngərli rayonunun Qarabağlar, Yurdçu və Qabıllı kəndlərində içməli su şəbəkələrinin tikintisi davam etdirilmişdir.

İnfrastruktur quruculuğunda əhali tərəfindən həyata keçirilən vəsait qoyuluşları da mühüm rol oynamış, təkcə 2020-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 366 min 697 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.

İqtisadiyyatın dinamik inkişafının təmin edilməsində mühüm əhəmiyyətə malik olan nəqliyyat infrastrukturunun artan əhali tələbatına uyğun olaraq səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilmiş, 2010-cu ildən 1 oktyabr 2020-ci il tarixədək muxtar respublikada 1133,7 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövr ərzində hava və dəmir yolu nəqliyyatının inkişafı istiqamətində infrastruktur yenilənmiş, inzibati və yardımçı binalar istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir.

Bu gün bütün sahələrdə qeydə alınmış dinamik inkişaf tempi əhalinin həyat səviyyəsinin və rahatlığının yaxşılaşdırılmasına, muxtar respublikanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə öz töhfəsini verməkdədir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika***
***Komitəsinin mətbuat xidməti***

*Dilimizdə əzbər olan bir deyim var: “Vətən sərhəddən başlayır”. Bu gün uğrunda böyük qəhrəmanlıqla döyüş meydanına atılan ərənlər elə o sərhədlərimizin bərpası yolunda canlarını qurban verərək tarix yazırlar. Damarlarında azərbaycanlı qanı axan hər bir vətəndaşımızın ürəyi sərhədlərimizdə döyüşən əsgərlərimizlə bir vurur. Xalqımızın, dövlətimizin şərəf və qürur tarixi yazılan bu məqamda Şahbuz rayonunun mənfur düşmənlə sərhəddə yerləşən yaşayış məntəqəsi olan, illər öncə düşmənlər tərəfindən dəfələrlə güllə atəşinə tutulsa da, itki versə də möhkəm dayanan, bu gün düşmənə gözdağı olan Şada kəndinə üz tuturuq.*

*Sərhəd bölgələrimiz*

# ŞADA:
## Vətən belə ünvanlardan başlayır

Öncə onu deyək ki, tarixi mənbələrdə “Şada” adının 1590-cı ildə Dərə Şahbuz nahiyəsində qeydə alınması barədə məlumatlar var. Bəzi tədqiqatçıların mülahizələrinə görə, bu ad qədim türk mənşəli Şato tayfasının adını əks etdirir. XII-XIII əsrlərdə Orta Asiyada baş vermiş siyasi hadisələrlə əlaqədar müxtəlif ərazilərə səpələnən Şato tayfası Azərbaycana oğuzlarla gəliblər. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun ehtimalına görə, bu ad türk mənşəli “şad” sözünə “a” şəkilçisi artırılması yolu ilə yaranıb. “Şad” sözü qədim türk və uyğur xaqanlığında titul mənasında işlənib. Vaxtilə türklər ordu qəhrəmanı, ordu başında duran igidə “şad” deyiblər. Bu söz qədim türklərdə həm də tayfa adıdır. Türk mənşəli Şada, Şadı tayfası müxtəlif ərazilərdə maldarlıqla məşğul olub...





Rayon mərkəzi Şahbuz şəhəri ilə 18 kilometr məsafədə yerləşən bu yaşayış məntəqəsi dəniz səviyyəsindən 1500-2000 metr yüksəklikdədir. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Zamin Hacıyevlə yaşayış məntəqəsi ilə tanış olmağa başlayırıq. Elə tanışlıq zamanı öyrənirəm ki, Şadanın ən qocaman sakininin 83 yaşı var. Bu, Züleyxa Həsənovadır. Züleyxa nənə deyir ki, bu sərhəd və dağ kəndində həyat öz axarı ilə davam etməkdədir. Bunun isə əsas səbəbi, bax gördüyün o dağın ətəyində, səngərlərdə gecə-gündüz keşiyimizi çəkən əsgər balalarımızdır. Yurdumuz qədim zamanlarda da mənfur ermənilərin vəhşilikləri ilə qarşı-qarşıya gəlib. 1990-cı ilin qanlı-qadalı günlərində kəndimizdən, evimizdən bir addım belə, kənara çəkilməmişik. Elimizin qəhrəman oğulları nizami ordumuzun olmadığı bir zamanda belə, Vətənimizi qəhrəmanlıqla müdafiə edib, düşməni yerinə oturtmağı bacarıb. Bu gün də güclü ordumuza və dövlət başçımıza güvənərək evlərimizdə təhlükəsiz, qorxusuz yaşayırıq.

Bunu qapılarını açıb girdiyimiz həyətlərdə də görürük. Kənd adamları müharibə şəraitində mənfur düşmənin bir addımlığında öz həyatlarını yaşayır. Daxil olduğumuz bir həyətdə yaşayan kənd sakini hazırda təqaüddə olan Bəxtiyar Abbasovdur. Uzun illər kənd məktəbində müəllim işləyib. Sərhəd kəndində həm də sərhədçi ömrü yaşayan şadalı uşaqların vətənpərvərlik ruhunda formalaşmaları, doğma yurd yerinə bağlı böyümələri üçün çalışıb. 1990-cı illərin məlum hadisələri dövründə kənddə hamı onun sözü ilə oturub-durub, kənd qorunub. Şadadakı hərbi hissənin əsgərləri ona ağsaqqal kimi böyük ehtiram göstərirlər.

Bəxtiyar müəllim kəndin bu günündən qürurla danışır: – Burada sakinlərə yaradılan şərait bizim rahatlığımıza hesablanıb. Özünüz də görürsünüz... Bunu düşmən də görür və başa düşür ki, o heç vaxt Azərbaycan torpaqlarına sahib ola bilməyəcək. Bir aya yaxındır ki, Azərbaycan Ordusunun onların başına gətirdiklərini görür. Bu, 30 ilə yaxındır ki, səbri daşan bir xalqın haqq mübarizəsidir. Bu mübarizənin qələbə ilə başa çatacağına xalqımız ürəkdən inanır. Bu inamı bizdə ordumuzun şücaəti, ölkə başçısının qətiyyəti yaradıb.

Bəxtiyar müəllimin bu cür ruh yüksəkliyi ilə ağızdolusu danışdıqları yurd yerinin təhsil ocağında da müşahidə edirəm. Məktəbin müəllimi Nufu Məmmədov deyir ki, 1990-cı il hadisələrində bu gün olduğu kimi dinc əhalini hədəfə alan erməni mənfurlarının atdığı mərmi nəticəsində kənddə Çiçək Məmmədova yaşadığı evdə şəhid olub. Bu gün Azərbaycan əsgəri şəhidlərimizin qanını yerdə qoymur. Bu da bütün xalqımızı sevindirməklə yanaşı, elobamızdan, torpaqlarımızdan ikiəlli yapışmaqla yaşayıb-yaratmağımıza stimul verir. Nufu müəllim deyir ki, ermənilərin Naxçıvana qarşı olan hələ XX əsrin əvvəllərindən başlayan ərazi iddiaları hər zaman puça çıxıb. 1990-cı ildə yenidən işğalçılıq planlarını gerçəkləşdirmək istəyən düşmən Biçənək, Şada, Gərməçataq, Sədərək, Havuş kəndlərinə hücumlar etməyə başlamışdı. O vaxtlar nizami ordumuz olmasa da, xalq Vətənin müdafiəsinə qalxmışdı. Əli silah tutan hər kəs cəbhədə düşmənlə mübarizə apararaq mənfur düşmənin Naxçıvan sevdasını ürəyində qoymuşdu. Bu gün qüdrətli ordumuz var. Bir aya yaxındır ki, erməni vandallarının başına mərmilər yağdırır. Erməni nəinki vaxtilə işğal etdikləri əraziləri, öz silahlarını, hətta papaqlarını, sənədlərini qoyub qaçır. Öz-özünə qaçmır, onu qaçmağa məcbur edən qüdrətli ordumuzun cəsur əsgərləridir. Əsgərlərimiz 1988-ci ildən ermənilərin xalqımızın başına gətirdiklərinin əvəzini çıxırlar, ancaq onlar kimi yox, beynəlxalq hüququn bütün tələblərinə əməl etməklə.

Bu cür azğın bir düşmənin gözü qarşısında şadalılar məğrur dayanıblar. Bu gün Şada muxtar respublikanın müasir kənd yaşayış məntəqələrindən biridir. Dövlətimiz bu yaşayış məntəqəsinin, kənddə yaşayan insanların problemlərinin həllini diqqət mərkəzində saxlayıb. 2008-ci ilin sentyabr ayında burada kənd tam orta məktəbi, feldşer-mama məntəqəsi istifadəyə verilib. Kəndə içməli su xətti çəkilib. 2009-cu ildə isə kənddəki hərbi hissə üçün əsgəri-məişət-yaşayış kompleksi və zabit ailələri üçün 2 mərtəbədən ibarət 8 mənzilli yaşayış binası istifadəyə verilib. Buraya 3 mənbədən su xətti çəkilib. Kənd və xidmət mərkəzlərinin fəaliyyətindən şadalılar razılıq edirlər. Bütün bunlar şadalıların qurub-yaratmaq əzmini, torpağa bağlılıq hisslərini daha da gücləndirib. Kənd əhalisi əkinçilik, maldarlıq və arıçılıqla məşğul olur. Onlardan Qurban Məmmədov 50-dən çox arı ailəsi saxlayır. Ailə təsərrüfatçısı olan zəhmətkeş sakinə bu işdə ailə üzvləri



yaxından kömək edirlər. Arıçılığın sirlərinə dərindən bələd olan müsahibim deyir ki, arıçılıq çox qədimdən mövcud olan bir sahədir. Bu sahə zaman-zaman inkişaf edərək gəlirli və faydalı təsərrüfat sahələrindən birinə çevrilib. Bizim kəndimizin də təbiəti arıçılığın inkişafı üçün əlverişlidir. Həyətyanı sahəmizdə bostan bitkiləri əkməklə yanaşı, arıçılığı da özümüzə məşğuliyyət seçmişik.

Vaxtilə şiddətli döyüşlərin getdiyi bir sərhəd kəndində bu gün müasir infrastruktura malik, gözoxşayan bir kəndin yaradılması insanların öz evlərində rahat, təhlükəsiz və arxayın yaşamasına, muxtar respublikamızın inkişafına öz töhfələrini verməsinə imkan yaradıb.

***Şadada gördüklərim, görüşdüyüm insanların söhbətləri qəlbimi qürur hissi ilə doldurmuşdu. Ordumuzun bir aya yaxın müddətdə qazandığı qələbələrin təbii olduğunu fikirləşirdim. Bu anda yadıma şair Əbülfəz Muxtaroğlunun “Cəngi vaxtıdır” şeirinin misraları düşdü:***

*Haray salın bütün kəndə, şəhərə,*
*Bircə yol var qələbəyə, zəfərə.*
*Mərd ərənlər süvar olsun yəhərə,*
*Qırılmasın qoy üzəngi, vaxtıdır!*
*“Cəngi” çalın, bu gün “Cəngi” vaxtıdır.*

✍ **Telli MƏMMƏDOVA**

## Aqrar sahədə davamlı inkişaf təmin olunur

Muxtar respublikada aqrar sahədə həyata keçirilən məqsədyönlü tədbirlər, əkin dövriyyəsinə yeni torpaqların qatılması və müasir suvarma sistemlərinin qurulması bu sahədə davamlı inkişafı təmin etmişdir. Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən sentyabr ayında kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar müşavirələr, tarla seminarları və fərdi qaydada maarifləndirmə tədbirləri keçirilmişdir. Yaz əkinlərində və təkrar əkinlərdə istehsal olunan məhsulların itkisiz, vaxtında yığılıb bazarlara çıxarılması və vegetasiya müddətində aqrotexniki tədbirlərdən düzgün istifadə edilməsi barədə sahibkarlara maarifləndirici məsləhətlər verilmişdir. Həmçinin kartof və soğan yığımının qısa müddətdə başa çatdırılması, toplanmış məhsulun Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin və sahibkarların anbarlarına təhvil verilməsi, eləcə də qarğıdalı biçininin vaxtında və itkisiz başa çatdırmaqla əlaqədar mexanizator və texnika mülkiyyətçiləri ilə fərdi qaydada söhbətlər aparılmışdır. Payızlıq taxıl əkinlərinin vaxtında aparılması üçün keyfiyyətli şumun qaldırılması və yüksək reproduksiyalı rayonlaşdırılmış toxum materiallarından istifadə edilərək əkinlərin aparılması sahibkarlara tövsiyə edilmişdir.

Nazirliyin mütəxəssisləri tərəfindən Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Yardımçı Təcrübə Təsərrüfatında Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Aqrokimya və torpaqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrinə praktik vərdişlərin aşılanması məqsədilə “Payızlıq taxıl əkinlərinə hazırlıq”, “Üzvi və mineral gübrələrdən istifadə edilərək torpağın strukturunun yaxşılaşdırılması yolları” mövzularında açıq dərs keçilmişdir. Birliyin əməkdaşları tərəfindən muxtar respublikanın 61 kəndində torpaq tədqiqat işləri aparılmış, 286 torpaq nümunəsi gətirilərək analiz olunmuş və nəticələri haqqında məlumat verilmişdir. Muxtar respublikamızda şoran torpaqların meliorativ vəziyyətinin öyrənilməsi məqsədilə torpaq tədqiqat obyektlərindən gətirilmiş torpaq nümunələrində PH-ın, karbonatlılıq və humusun təyin edilməsi analizləri aparılır və hesabatlar hazırlanır.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin əməkdaşları muxtar respublika ərazisində istixana və parnik təsərrüfatı ilə məşğul olan sahibkarlarla görüşüb, onlara istixana şəraitində tələb olunan keyfiyyətli toxum və şitillərin alınıb əkilməsinə, xəstəlik və zərərvericilərin qarşısının vaxtında alınmasına dair tövsiyələr vermişlər. Ay ərzində 43 ailə təsərrüfatı rəhbəri tərəfindən müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə idarəyə gətirilən nümunələrə baxılmış, mübarizə tədbiri olaraq lazımi məsləhətlər verilmişdir.

Payz-qış mövsümünə hazırlıqla bağlı heyvandarlarla müşavirələr keçirilmiş, 26-27 sentyabr tarixlərdə Naxçıvan şəhərində keçirilən beşinci “Arıçılıq məhsulları – bal festivalı”nda arıçıların iştirakı təmin olunmuşdur. Dövlət Baytarlıq Xidmətində nazirliyin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri Əyyub Abdullayev tərəfindən hazırlanan “Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları” adlı kitabın və “Heyvan cinslərinin rayonlaşdırılmasının atlası”nın təqdimatı olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Elektron kadastr xəritələri hazırlanır

Muxtar respublikada əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması, fəaliyyət istiqamətləri üzrə vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi sentyabr ayı ərzində də Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.

Torpaqların elektron kadastr uçotunun aparılması üçün Şahbuz rayonunun bütün bələdiyyələri üzrə reyestr məlumatlarının yeni hazırlanmış xəritələrin üzərinə miqrasiyası başa çatdırılmış, rayonun elektron kadastr xəritəsi tərtib edilmişdir. Naxçıvan şəhərinin, Kəngərli və Sədərək rayonlarının ərazisində eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar naturada dəqiqləşdirilərək həmin ərazilərin xəritələri hazırlanmışdır.

Şərur rayonunda torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilmiş və torpaqların qida maddələri ilə təmin olunmasına dair hazırlanmış yeni kartoqramlar Xanlıqlar, Ələkli, Dərvişlər, Çəmənli, Kosacan və Siyaqut bələdiyyələrinə təqdim edilmişdir.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq 13 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları, habelə təsərrüfat fəaliyyəti ilə əlaqədar 5 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

Sentyabr ayında 712 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 475 texniki sənəd hazırlanmış, 195 əmlakın bazar dəyəri məlumat bankına daxil edilmişdir. Yeni yaranmış 33 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 83 ünvan arayışı hazırlanmışdır. Hesabat ayı ərzində səyyar xidmət qrupu tərəfindən 8 yaşayış məntəqəsində vətəndaşlara səyyar xidmət göstərilmiş, qəbul edilmiş 47 müraciət əsasında mülkiyyət sənədləri hazırlanıb hüquq sahiblərinə təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Ötən ay 78 nəfərə əmək pensiyası təyin edilib

Muxtar respublikamızda cəmiyyətin həssas qrupu sayılan pensiyaçıların rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması tədbirləri diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu da bu istiqamətdə verilən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Belə ki, ötən ay ərzində əmək pensiyaları və məcburi dövlət sosial sığorta ödəmələri vaxtından əvvəl maliyyələşdirilmiş, pensiya ödənilməsinə 14 milyon 747 min manat, sosial sığorta ödəmələrinə isə 328 min manat vəsait xərclənmişdir.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 8 milyon 340 min 700 manat vəsait daxil olmuşdur. Bu vəsait nəzərdə tutulan məbləğdən 16,5 faiz çoxdur. Daxil olan məcburi dövlət sosial sığortahaqqının məbləği ildən-ilə artmaqdadır. Bunun nəticəsində isə əmək pensiyaları və sosial müavinətlərin vaxtı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaranır.

Hesabat dövründə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranan 78 vətəndaşa əmək pensiyası təyin edilmişdir ki, bunlardan 39-u yaşa, 4-ü sağlamlıq imkanları məhdudluğa, 35-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxan vətəndaşlar olmuşdur. Fərdi uçot sistemində də işlər davam etdirilmiş, yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 158 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

Muxtar respublikada pensiyaçılara yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların ödənilməsi sistemində mütərəqqi üsullardan istifadə olunur. Hazırda bütün növ əmək pensiyaçıları plastik kartlar vasitəsilə öz pensiyalarını istənilən vaxt rahat şəkildə əldə edirlər. Eyni zamanda kənd yerlərində yaşayan pensiyaçıların rayon mərkəzinə getmədən pensiyalarını əldə etməsi üçün də müvafiq tədbirlər görülür, onların istəkləri nəzərə alınmaqla kənd yerlərində pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi təşkil olunur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Füzulinin azad olunması hərb tariximizə yazılacaq şanlı səhifədir

Çox gözlədik... İnandıq... Düz 27 il... Həsrətin sona yetəcəyinə... Bu ötən illər ərzində hər iki ölkə arasında dırnaqarası sülh danışıqları oldu, boş vədlər verildi. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bu laqeyd münasibəti, xalqımıza qarşı törədilən vəhşilikləri görməzdən gəlməsi, ərazi bütövlüyümüzün dünya ölkələri tərəfindən tanınmasına baxmayaraq, torpaqlarımızın mənfur düşmən tərəfindən işğal altında saxlanması birtərəfli münasibətdən başqa bir şey deyildi. Amma buna baxmayaraq, xalqımız doğma torpaqlarımızın geri qaytarılması uğrunda mübarizəni heç vaxt dayandırmadı. Çünki Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, biz hər bir şeyə dözə bilərik, ancaq torpaqlarımızın işğal altında qalmasına dözə bilmərik və dözməməliyik".***

### *Və nəticə...*

Azərbaycan Ordusu Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımızı bir-bir azad edir. Minnətdarıq, Ali Baş Komandan! Minnətdarıq, Azərbaycan Ordusu!



Minnətdarıq bu qüruru bizə yaşatdığınız üçün.

Oktyabrın 17-si Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Füzuli şəhərinin və rayonun bir sıra kəndlərinin azad olunduğunu xalqa çatdırdı: ***"Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"***

Füzuli Azərbaycanın qədim və əhəmiyyətli bölgələrindən biridir. Əvvəlcə bu yerin adı Qarabulaq adlandırılmışdır. Təbii ki, burada bol sulu çayların olması bu adın verilməsinə səbəb olmuşdur. "Qara" sözü rəng mənasında yox, böyük mənasında işlədilmişdir. Bədnam qonşuların – insanlıq tarixinə ləkə olan ermənilərin müdaxiləsi nəticəsində bəzi qədim yer adlarımız da öz mənasını itirmişdir. Sonralar bu qədim torpağımızın adı dəyişdirilərək Qaryagin olmuşdur. O Qaryagin ki Sisianov kimi türklərə qənim kəsilən bir şovinist idi. Lakin haqqədalət öz yerini gec-tez tapır. 1959-cu ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə bu rayonu Füzuli adlandırılır.

İşğaldan əvvəl rayonda, təxminən, 144 min nəfər əhali yaşamış, 1 şəhər, 1 qəsəbə, 75 kənd və başqa yaşayış məntəqələri olmuşdur. Füzuli rayonu 1993-cü ilin avqustunda işğal edilən zaman yüzlərlə şəhid vermiş, minlərlə insan sağlamlıq imkanlarını itirmiş, 100-dən çoxu isə itkin və girov düşmüşdür.

1994-cü ildə rayonun 22 yaşayış məntəqəsi, 50 min hektara yaxın ərazisi işğaldan azad edilmişdir. Rayonun azad olunan ərazilərində yenidənqurma işləri aparılmış, iş yerləri açılmış, bir sözlə, insanların rahatlığının təmin olunması üçün hər cür şərait yaradılmışdır. Horadiz qəsəbəsində evlər bərpa olunmuş, yeniləri tikilmiş, yollar abadlaşdırılmış, həyat öz axarına qaytarılmışdır. Ölkənin müxtəlif şəhər və rayonlarında yaşayan məcburi köçkünlər həmin evlərə köçürülmüşdür. Lakin erməni vandalları tərəfindən işğal olunan ərazilərimizdə 30 il müddətində heç bir infrastruktur yaradılmamışdır. Əksinə, var olanlar da dağıdılmışdır. Əslində, təəccüblənməmək lazımdır. Çünki Ermənistan bərabərdir vəhşilik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 oktyabr 2020-ci il tarixdə xalqa müraciəti zamanı dediyi kimi: ***"Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə ulu öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin, təqribən, yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir".***

Füzuli şəhərinin azad olunması bizə strateji üstünlük verir. Bu qədim torpağımızın erməni tapdağından azad edilməsi üçün ağır döyüşlər getdi. İtkilər verdik. Amma əzəli, tarixi torpağımızı yağı düşmənə vermədik. Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi və Azərbaycan Ordusunun şücaəti ilə düşmən silah-sursatını ataraq qaçır. Hətta Ermənistan Silahlı Qüvvələrində əsgərlər arasında əmrlərə tabe olmama halları baş verir. Düşmən hərbçiləri artıq döyüşmək istəmir və mövqeləri özbaşına tərk edirlər. Paylaşılan videolarda da bu, açıq-aydın görünür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: ***"Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədim yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi, təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik".***

### *Bu gün tarixi bir gündür*

Ustad şairimiz Hüseyn Arifin "Sən burda qəribsən, yurd orda qərib" misrasında dilə gətirilən nisgil, Vətən həsrəti artıq vüsala çevrilir. Bu vüsala yetişməyin başlıca səbəbkarı isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və qüdrətli ordumuzdur. Bu gün Azərbaycan tarix yazır və bütün dünya bu tarixə şahidlik edir. Bir milyondan çox qaçqın, məcburi köçkünümüz artıq ata-baba yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyir. Bu gün xeyirin şər üzərində qələbə çaldığı gündür. Bu gün tarixi gündür. Azərbaycan xalqı həyəcanla gözlədiyi günün – ərazi bütövlüyümüzün bərpa olunmasının həyəcanını yaşayır. Bir-bir azad olunan torpaqlarımızda azan sədaları eşidilir.

### *Füzulidən nə qalıb?!*

Füzuli rayonu tarixi-dini abidələr, ziyarətgahlar, xüsusən də türbələrlə zəngin idi. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini, Şah Abbas karvansarayını, Qiyasəddin məscidini aid etmək olardı. Cümlələr keçmiş zamandadı. Çünki erməni vandalizmi nəticəsində həmin abidələrdən, türbələrdən, ziyarətgahlardan əsər-ələmət qalmayıb. Amma geri qayıdıb orada dayanan həyatı yenidən, qaldığı yerdən davam etdirəcəyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: ***"Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsərələmət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir".***

### *Azərbaycan həqiqətləri dünya mediasında*

Prezident İlham Əliyev "Euronews", "Əl-Cəzirə", "CNN-Türk", "Sky News", "Əl-Ərəbiyyə" televiziyalarına, Rusiyanın "Pervıy kanal", eləcə də "Rossiya 1" telekanalının "60 dəqiqə" proqramına, Türkiyənin "TRT Haber" telekanalına, "CNN International" televiziya kanalının "Connect the World" proqramına və digər telekanallara geniş müsahibələr verdi. Təbii ki, Prezidentə ünvanlanan suallar içərisində qərəzli, təxribat xarakteri daşıyan suallar da olurdu. Amma ölkə rəhbəri həmin suallara böyük səbirlə, təmkinlə cavablar verirdi. Azərbaycanın haqq yolunda olduğunu, öz torpağında vuruşduğunu, bu şərəfli missiyanın ləyaqətlə yerinə yetirildiyini dəfələrlə dünyaya çatdırdı.

Düşmən həmişəki kimi xainlik edib, üz-üzə döyüşdən qaçaraq mülki əhalini hədəfə alsa da, biz gücümüzü həm düşmənə, həm də dünyaya döyüş meydanında göstəririk. Biz sonadək vuruşacağıq. Vuruşacağıq ki, ərazi bütövlüyümüzü təmin edək. Vuruşacağıq ki, qələbə qazanaq. Qələbə qazanacağıq ki, şəhidlərimizin ruhu şad olsun. Və şəhidlərimizin narahat ruhu işğal altında olan torpaqlarımız azad olunandan sonra rahatlıq tapacaq. Biz xoşbəxt insanlarıq ki, o möhtəşəm günün yaxında olduğunu bilir və görürük. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***"Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"***

**Rəmzi İBRAHİMOV**



## "Qarabağ" dastanının "Xudafərin" boyu

Azərbaycan tarixinin möhtəşəm abidəsi, Azərbaycan memarlıq sənətinin zirvəsi Xudafərin... Tarixin yolyoldaşı, sinəsində Şəddadilərin, Rəvvadilərin, Elxanilərin, Qaraqoyunluların, Ağqoyunluların, Eldəgizlərin, Səfəvilərin, Teymurilərin, Qacarların izi olan – keçmişin şahidi Xudafərin. Nə çox xoş günlərə – toylara, düyünlərə, çalçağırlara, nə müharibələrə-ordulara-qoşunlara, silahlara-süngərlərə sinə açan Xudafərin. Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən yeganə vasitə. Tarixi İpək yolunun üzərində yerləşməklə Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olan daş əzəmətli, daş dözümlü körpü...

### *Özün boyda dərdin vardı, Xudafərin*

Xudafərinin Azərbaycanın bağrına şaxələnmiş möcüzəli Araz çayının üzərində bünövrəsi çox qədimdir, bu tarix XV əsrdən də əvvəllərə söykənir. Xudafərinin qədimliyi kimi, dərdi-səri də böyük olub. Bu gün Cənubi və Şimali Azərbaycanı birləşdirən rəmzi abidə kimi anılan körpü Şimali Azərbaycan Rusiyanın tərkibinə qatıldıqdan sonra ikiyə ayrılan torpaqlarımızı artıq birləşdirə bilmədi. Sovet imperiyası dövründə körpü ilə Arazın o tayına keçmək yasaq olundu. Düz 70 il. Ta ki, keçən əsrin sonlarınadək, Azərbaycanda başlanan güclü azadlıq hərəkatının qollarından birinin – sərhəd hərəkatının başlanmasınadək. 1989-cu il dekabrın 31-də Araz çayının o tay-bu tayında yaşayan azərbaycanlıları ayıran sərhəd dirəklərinin vətəndaşlarımız tərəfindən dağıdılmasınadək. Xudafərin bu dərdindən yenicə qurtarmışdı ki, 1993-cü ildə Cəbrayıl nankor ermənilər tərəfindən işğal olundu. Düz, 27 ildir ki, sinəsi doğma addımlardan məhrumdur. Nə yaxşı ki, Araz varmış... Gecə-gündüz tək Arazla pıçıldaşdı Xudafərin. Dərdin dedi, sərin dedi, gözyaşını Arazın sularına qarışdırdı. Kənardan baxanlar Xudafərini daş abidə görürdü, Arazı su. Lakin nə Xudafərin daşdı, nə də Arazdakı su. Xudafərin həsrətliydi, Araz onun göz yaşıydı...

### *"Xuda -Afərin" –Allaha mərhəba*

Xudafərin, "Xuda-Afərin", yəni "Allaha mərhəba"dır adının mənası. Allahın yaratdığı yer olduğun üçün adın sənin Allaha mərhəbən, təşəkkür payındır. Dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan səni "Allah tərəfindən yaradılan" da adlandırırlar. Həm də bu dayaqlar tək sənə – 11 aşırımlı, 130 metr uzunluqda, 6 metr enində, 12 metr hündürlükdə olan Baş Xudafərində deyil, gözəl Cəbrayılın, füsunkar Arazın sənə yaxın ərazisində 15 aşırımlı, uzunluğu 200, eni 4,5, hündürlüyü isə 10 metr olan Xudafərinə də aiddir. Sizin hər ikinizin yaranmasının böyük səbəbi Ulu Yaradanın yaratdığı coğrafiyanın uyğunluğudur. Hər aşırımınız tarixin bir dönəmidir. Zamanın keşməkeşlərində dağıdılmağa məruz qalsa da, heç şübhəsiz ki, Ulu Yaradanın özü sizi qoruyub. Son 27 ildə isə işğalda olan digər ərazilərimizdə ermənilərin daşı daş üstə qoymaması sizə də çoxdan təsir etmiş olardı. Lakin yenə də sizi Allah qoruduğu üçün gücləri çatmayıb. Düzdür, əvvəllər gördüyümüz gözəlliyinə xələl gəlib bir az, uçulmusan, sökülmüsən, bu da yəqin nisgilindən, həsrətindən olubdur, axıtdığın göz yaşları daşlarını əridibdir. Qəm eləmə, Xudafərin. Səni yağıdan alan rəhbər, eloğlular sənə yeni həyat da verəcəklər.

### *Xudafərində dalğalanan Azərbaycan bayrağı*

Tarixçilər yazırlar ki, Cəbrayılda nəinki təkcə Xudafərin körpüləri, eyni zamanda Azərbaycan memarlıq sənəti sahəsində mühüm yer alan bir çox monumental abidələr, qalalar, türbələr, məscidlər və sair var. Bu ərazilər Kür-Araz mədəniyyətinin təşəkkül tapdığı və Qədim Şərq mədəniyyətinin Qafqaza təsirində keçid məntəqələrindən, habelə qədim mədəniyyətlərin qovuşduğu yurd yerlərindən biridir. Bu zənginlikləri özündə əks etdirən Cəbrayılın sentyabrın 27-də Böyük Mərcanlı, Nüzgar, oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq, 4-də Cəbrayıl şəhəri və Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal, 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə, 9-da Qaracallı, Süleymanlı, Əfəndilər, 15-də Doşulu, 19-da Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri və ötən günlər ərzində əhəmiyyətli yüksəklikləri, mövqeləri, bu ərazilərin fonunda isə Xudafərin işğaldan azad edilibdir.

Oktyabrın 18-də – Azərbaycanın Dövlət Müstəqilliyi Günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı. Azadlığın, növrağın mübarək, Xudafərin! Nə gözəl tarix yazıldı aşırımlarına. Sən axı 1991-ci ildə əldə etdiyimiz müstəqilliyi doyunca yaşamamışdın. Üçrəngli bayrağın üstündə bərqərar olduğun Arazın sularındakı əksini ətrafındakı zirvəsi səmaya toxunan dağlara, sıldırım qayalıqlara yaya bilməmişdin. Bayrağın mübarək, azadlığın mübarək, Xudafərin! Sən Allaha səni yaratdığı üçün təşəkkür edirsən əsrlərdir. Biz azərbaycanlılar da Allaha səni bizə yenidən qovuşdurduğu üçün minnətdarıq, ey ulu yurdumuz, müqəddəs torpağımız Cəbrayılın göz bəbəyi...

Xudafərin, Milli Ordumuzun üzərində qaldırdığı bayrağın dalğaları Arazın suyunda ulu öndərimiz Heydər Əliyevin ***"Azərbaycan müstəqil dövlətdir və birinci növbədə, ərazi bütövlüyümüzü təmin etməliyik. Müstəqil dövlət öz ərazisinin sahibi olmalıdır"*** tövsiyələrini əks etdirirdi. Bu, çox qürurvericidir. Çünki Azərbaycan xalqı bu gün müstəqilliyini əbədi edən dahi şəxsiyyətin layiqli ardıcılı, Ali Baş Komandanımızın rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovur, ərazi bütövlüyümüz bərpa olunur. Azərbaycanda yeni dövrün şərəfli tarixi yazılır.

**Mətanət MƏMMƏDOVA**

# Ordumuz yenilməzliyimizin rəmzidir

*“Bütün hökmdarlıqlarda hakimiyyətin əsasını yaxşı qanunlar və yaxşı ordu təşkil edir. Amma yaxşı ordu olmadığı yerdə yaxşı qanunlar da olmur və ya əksinə, harada yaxşı ordu varsa, oranın qanunları da yaxşıdır”. İtalyan filosof və yazıçısı Nikkolo Makiavellinin “Hökmdar” əsərindəki bu fikirlərə nəzər saldıqda bir daha əmin olursan ki, hər bir dövlətin qüdrətini müəyyənləşdirən əsas amillərdən biri, hətta birincisi güclü ordudur. Bu gün “Dünyanın ən qüdrətli ordusu da böyük ideyaların qarşısında duruş gətirə bilməz” – kəlamı Azərbaycanda öz təsdiqini tapıb. Qürurla deyə bilərik ki, ölkəmiz iqtisadi və siyasi nailiyyətlərə imza atmaqla yanaşı, ordu quruculuğu prosesində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycanın hər an düşmənə layiqli cavab verə bilməyə qadir olan güclü, qüdrətli və modern ordusu, hərbi arsenalında isə ən müasir, dünyanın qabaqcıl ölkələrinin ordularının silahlanmada istifadə etdikləri texnikalar var.*



Məhz ordumuzun gücü ilə neçə illərdir ki, işğal altında olan torpaqlarımız geri alınaraq, xalqımızda böyük sevinc yaşadılır. Azərbaycanın işğalla heç vaxt barışmayacağını hər zaman bəyan edən Prezident cənab İlham Əliyev deyib: ***“Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir”.***

Təbii ki, ölkəmizin bu gün bu qədər qüdrətli olması heç də asan başa gəlməyib. Keçmişə qısa bir səyahət edək. Ölkəmizdə xaos, anarxiya, siyasi hərc-mərclik, özbaşınalıq hökm sürən zamanlar himayədarlarının köməyinə arxalanan ermənilər cəbhəboyu hücuma keçmişdilər. Yaranmış xaotik vəziyyətdən istifadə edən ermənilər sürətlə irəliləyir, ölkəmizdəki ayrı-ayrı silahlı qruplaşmalar düşmənə qarşı müqavimət göstərmək əvəzinə, məxsus olduqları qüvvələrin şəxsi maraqlarına xidmət edirdilər. Keçmiş Sovet imperiyasının silahlı qüvvələrindən istifadə edən Ermənistan Azərbaycanda qanlı qırğınlar törətdi. Qarabağda qətliamlar təşkil edildi. Naxçıvan Muxtar Respublikasının təcavüzkar ölkə ilə sərhədləri gecə-gündüz düşmən atəşinə tutuldu. Ancaq bütün bunlar Azərbaycanı haqq yolundan döndərə bilmədi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti, qətiyyətli fəaliyyəti nəticəsində Azərbaycanda ordu quruculuğu geniş vüsət aldı, ayrı-ayrı siyasi qüvvələrə xidmət edən naqis dəstələr ləğv edildi, qeyri-peşəkarlar ordudan uzaqlaşdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrə cəlb olundu. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Ümummilli lider Heydər Əliyevin 1993-cü il noyabrın 2-də böyük dönüşə yol açan tarixi çağırışı ölkə ictimaiyyətində gələcəyə olan inamı və hərbi-vətənpərvərlik hisslərini ikiqat artırdı. Onun xalqa müraciəti minlərlə insanı könüllü olaraq döyüşən orduya yolladı. Ulu öndərin orduya diqqəti əsgərlərin döyüş əzmini artırdı. Nəhayət,



Azəbaycan Ordusu ən güclü, qüdrətli silahlı qüvvəyə çevrildi. Bununla ordu quruculuğunda yeni mərhələnin əsası qoyuldu. Əslində isə ordunun güclənməsi Azərbaycan dövlətinin güclənməsi demək idi.

Bu gün ulu öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkəmizin son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və bunun ordumuzun güclənməsi ilə müşayiət edilməsi Ali Baş Komandanın öz vədinə sadiq olduğunun sübutudur. Ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində son illər ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib. Hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bunun bariz nəticəsidir ki, Azərbaycan Ordusu sürətlə güclənir, yeni texnikalar alınır, ən müasir silah-sursat ordunun arsenalına daxil edilməklə hərbi hissələrdə komplektləşdirilmiş silah-sursat və texnika daha müasirləri ilə əvəz olunur. Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı qürurla deyə bilər ki, indi qüdrətli ölkəmizin güclü, yenilməz, nizami ordusu var.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı hərbi birləşmələri də ən müasir hərbi texnika ilə təmin olunub, zabit və əsgərlərin peşəkarlığı artırılıb. Bütün bunlar isə muxtar respublika rəhbərinin orduya göstərdiyi diqqət və qayğıdan qaynaqlanır. Ordumuzun qüdrətindən bəhs edərkən təcavüzkar Ermənistanda yaranan vəziyyətdən danışmaq, müqayisəli təhlil aparmaq da yerinə düşər. Aydın məsələdir ki, bir ölkənin müqəddəratını ordunun vəziyyəti xarakterizə edir. İşğalçı ölkə olan Ermənistanın daxili, iqtisadi və sosial vəziyyəti çox ağır bir durumdadır. Demək olar ki, Ermənistan əhalisi kütləvi şəkildə ölkəni tərk edir. Bu isə ölkənin ağır iqtisadi və siyasi böhran vəziyyətində olması ilə bağlıdır. Azərbaycan torpaqlarına sahiblənmək istəyən təcavüzkar Ermənistan rejimi artıq çökmək üzrədir. Bu vəziyyətdə Azərbaycan dövləti ilə hər hansı bir rəqabət aparması, Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinin qarşısına çıxması, sadəcə, axmaqlıqdır. Artıq bütün xarici ölkələr də bilir ki, iqtisadi bataqlıqda boğulan Ermənistanda vətəndaşlar kimi, ordu da acınacaqlı durumdadır.

*Deyirlər, müharibəni axmaqlar başlayır, igidlər davam edir, ağıllılar bitirir. Bəli, Azərbaycanla müharibəyə başlayanlar bu ada tamamilə layiqdirlər. Bu gün Azərbaycan Ordusunun igid əsgərinin düşmənə qarşı amansızlığı, hərbi biliyi, müasir silahlarla təmin olunması tam əsas verir deyək ki, biz qələbəni qazanmağa qadirik və buna müvəffəq olacağıq. Xalqımız inanır ki, Azərbaycan Ordusu lazımi zamanda öz sözünü deyəcək, işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməklə bərabər, yurdumuzda gözü olan hər kəsə gözdağı verə biləcək. Bütün qəlbimizlə inanırıq ki, parlaq zəka, dəmir iradə və haqq qalib gələcək...*

**Gülcamal TAHİROVA**

# Vətən bağı al-əlvandır

*(hekayə)*

## Ətrin gəlir, Xarı bülbül

Əvvəl zaman içində Qarabağda xan nəslindən olan Ağabəyim adlı gözəl, işvəli-nazlı bir şairə yaşarmış (Qarabağ xanı İbrahimxəlil xanın qızı). Şeirli-sözlü şairə təbiəti bir başqa cür sevərdi. Dağ döşündə əsrarəngiz görünən yamaclar, düzlər, ətəklərdə bitən güllər-çiçəklər, heyranedici, füsunkar gözəlliklər onun həyat enerjisini yüksəldər, əhval-ruhiyyəsini birə-beş artırardı. Təbiətə aşiq Ağabəyim güldən-çiçəkdən yazar, Vətənə şeirlər, bayatılar, mədhiyyələr həsr edərdi. Elə bu səbəbdən idi ki, saraya gələnlər Ağabəyim ağadan gözəl şeirlər dilərdi. O da bu istedadı ilə fəxr edər, təbini işə salıb, ilhamını dilləndirərdi. İlhamı təbiət olan Ağabəyim ağanın güllərə, çiçəklərə qarşı fərqli sevgisi vardı. İncə, zərif gözəlliklərin vəhdətindən aləmə işıqsaçan güllüklər ona görə həyatın ağ-qara hissəsinin rəngli fonu idi. Ən çox sevdiyi gül isə Şuşada bitən “xarı bülbül” adlı gözəllər gözəli, dillər əzbəri bir gül idi. Nadir olan bu bitki yalnız bu yerlərdə bitirdi. Onun intizarlı duruşu, ədalı görünüşü bağçanın tamamlanan yar-yaraşığıydı. Hər səhər adəti üzrə yuxudan oyanan kimi bağa tələsər, güllər içində incə duruşu ilə hər çiçəkdən seçilən xarı bülbülü salamlayar, iyləyib xoş sözlər deyər, ona sevgisini səmimi hissləri ilə ifadə edərdi. Sanki xarı bülbülün bu gözəlliyini, onun içindəki işığı yalnız Ağabəyim ağa görərdi. Kimliyindən asılı olmadan bu gülə kim baxsaydı, ona heyran olardı. Özünəxas qəmzəli duruşu, cazibəli hüsnü hər kəsi valeh etmişdi özünə. Onu dərib bağına aparanlar da az deyildi. Gəl ki, kim onu bağında aparıb əkmişdisə, “nazlı” gül “küsmüşdü” həmin bağdan, bağçadan. Elə açmadan saralıb-solmuşdu yad bağçalarda. Ona görə Ağabəyim ağa elə hiss edirdi ki, bu gülü hamı görə bilər, amma onun kimi hamı baxa bilməz. Bu baxışlarda nələr yoxdu, nələr? Bu baxış Ağabəyimin xarı bülbülə bəslədiyi xüsusi sevgi hisslərindən ibarət idi. Aralarında elə bir bağ yaranmışdı ki, xarı bülbül də öz aşiqini görməyəndə boynunu bükər, kimsəsiz uzaqlara baxardı, gözləri yol çəkərdi. Bir az geciksəydi, hər yerə səs salar, ətrafa boylanar, güllərdən, çiçəklərdən öz aşiqini xəbər alardı. Xəbər almayanda da ağzını bıçaq açmazdı. Ta ki uzaqdan hüzuruna gələn Ağabəyimi görüncəyə qədər.

Yenə görüşünə aşiqi gələcəyi gözlənilən səhərlərdən biri idi. Xarı bülbül adəti üzrə gözlərini bağın ayağına dikib öz aşiqini həyəcanla gözləyirdi. Bu hüznlü simanın intizarında, sanki həsrət, zalım ayrılıq, səbəbsiz vida vardı. İki gün idi ki, gülün görüşünə gələ bilməyən Ağabəyimdən heç bir söz, heç bir xəbər-ətər yox idi. Bağlar da, güllər də intizar dolu həyəcanlı günlərin əsirinə çevrilmişdi elə bil. Bu əsirlik, bu yoxluq nə qədər çəkəcəkdi, sonu vardı, yoxdu kimi suallar bilərdi. Başqa cür heç mümkün də deyildi. Amma bu gəlməməzliklərin ömrü günlərə, aylara çevriləndə o da öz aşiqini gözləməyin, həsrətin yoxluğuna dözməyin yollarını axtarmağa başladı. Çarəsi iradə olan gülün bir yolu qalmışdı. Öz hüznlü, intizarlı duruşuyla naləsini bağrına basıb, ah çəkib, dərd bəsləmək.

Bir səhərçağı günəşin şəfəq işıqlarını səmadan əsirgəmədiyi bir gün idi. Aydınlanan günün müjdəli sabahı uzaq ellərdən, ta İran diyarından gələn bülbül bağın sultanı xarı bülbülün hüzuruna endi. Qıy vurub gülün qarşısında dayandı. Xarı bülbül heç vaxt rastlaşmadığı bu quşun gəlişini xəbər almaq üçün soruşdu: – Ey göyləri qanadlarıyla fəth edib, buludları özünə heyran



qoyan, uzaq ellərdən ta bizim bağa təklif buyuran bülbül, xeyirdimi gəlişin? Bülbülsə Ağabəyimdən soraq gətirmişdi:

*Bağda əsir olma, gül,*
*Boynu bükük durma, gül*
*Həsrət sona yetəcək*
*Ayrılıqlar bitəndə.*
*Uzaq eldə əsirəm,*
*Könlüm olub qan-bağır*
*Səndən pənah umuram,*
*Danış barı, din barı.*
*Vətənimin dərdi var,*
*Qəmi var, yarası var,*
*Əgər ki, bağdan küssən,*
*Sənsiz solar bağım, gül.*

Bülbülün bu harayı gülün əhval-ruhiyyəsini lap dəyişdi. Ağabəyimin ətrini bülbüldən alan gül ona möhkəmcə sarılıb, bərk-bərk qucaqladı. Elə möhkəm qucaqladı ki, bülbülün nəfəsi kəsildi, gülün sinəsində can verdi. Gülün ləçəkləri al qana büründü. Beləcə, xarı bülbülün sinəsinə həkk olunan bülbülün son harayı, son fəryadı, son həyəcanı, son nəfəsi oldu. Gül üçün bir bağdan ibarət olan həyat, gündən-günə əzab-əziyyətə çevrilən ömür, nisgilli aşiq sevdası, yarımçıq qalan Ağabəyimin arzuları həyat eşqini də söndürdü, arzularını da yarı-yarımçıq qoydu. Xarı bülbül də o gündən başqa yerdə bitməyəcəyinə, başqa bağda çiçəkləməyəcəyinə, öz sevgisinə hər zaman sadiq qalacağına and içdi. Çünki Ağabəyimin sifarişini gətirən bülbülün son misraları onu bu sevgini Vətənində qorumağa sövq etdi.

Vətəni Şuşanın mərdlik, ərənlik, sevgi, sədaqət obrazına çevrilən xarı bülbül təkcə aşiq ayrılığı çəkmədi. Çox keçmədi, 30 il əvvəl o həm də Vətən sevgisinə möhtac qaldı. Şuşada ola-ola Cıdır düzünə həsrət qaldı. Əsirlik onun üçün daha da faciəvi oldu, onu daha da qəzəbləndirdi. Gizləndi yamaclarda, düşmənin əli dəyməsin deyə uzun müddət özünü torpağın altında qorudu bu Vətən üçün. Amma hər zaman inandı. Ümidini heç vaxt itirmədi. Bir gün Vətənin azad torpağında əsirlikdən azad olacağı günləri saydı. Qulaqlarını tutaraq öldürülən Vətən övladlarının harayına qarşılıq, bir gün qisası alınacağı günü gözlədi. İlahi ədalətin qələbəsinə ümid etdi. Onu həyatda tutan bu əbədiləşən Vətən sevgisi idi. Nəhayət, 30 illik intizardan sonra Vətəninə, sevgisinə sadiq qalan gülün qulağına öz Vətənindən analarının qucağında ağlayaraq, soyuqdan donaraq gedən körpələrin – artıq ərənləşmiş igidlərin səsləri gəldi. Necə də doğma səs. Necə də doğma nəfəs. “Ətrin gəlir, xarı bülbül, dur ayağa, nazlı gül! Biz gəlmişik, səni görməyə, ətrini duymağa, sənə bol-bol sarılmağa”. Mərdliyini, mənliyini, azadlığını, sevgini sənə qaytarmaq üçün burdayıq. Qələbələrin mübarək, Xarı bülbülüm...

**Türkan HÜSEYNLİ**

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 11/1 ünvanında Məhərrəmov Vüqar Abbas oğlunun adına olan 000483 inventar nömrəli texniki pasport və MH-0066594 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Hacıniyyət kəndi, 6-cı küçə ev 1-də yaşamış Əkbərov Mənsur Məcid oğlunun adına olan 14251 inventar nömrəli texniki pasport və MH-0055807 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 786